RESPUBLİKA 29 iyun 2019-cu il

# ŞƏRƏFLİ ÖMÜR YOLU

**Tədqiqatlarında öz dəst-xətti ilə tanınan, yüksək mənəvi dəyərlərə sahib, prinsipial mövqeyi ilə seçilən, ömrünün 60 ildən çoxunu elmə həsr edən Azərbaycan Memarlıq və İnşaat Universitetinin inşaat konstruksiyaları kafedrasının dosenti Cahangir Quliyev ömrünün müdriklik çağına - 85 yaşına qədəm qoyub.**

C.Quliyev 27 iyun 1934-cü ildə Bakının Yeni Suraxanı qəsəbəsində dünyaya gəlmişdir. O, 1953-cü ildə orta məktəbi bitirmiş, elə həmin ildə də Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuşdur. 1958-ci ildə institutu bitirəndən sonra gənc mütəxəssis bir müddət istehsalatda işləmişdir. Əvvəlcə dəmir-beton zavodunda, sonra tikintidə çalışmış, 1960-cı ildən isə layihələr təqdim etmişdir. Bu müddət ərzində C.Quliyev bir çox layihələr həyata keçirmiş, Sumqayıt şəhərində ölçüsü 45x45 metr olan örtülü bazarın konstruktoru olmuşdur. Onun müəllifi olduğu bu layihə orijinallığı ilə seçilir, belə ki, bu tikintidə xarici divar təməl üzərində oturmur, asılıb, bina əsas dörd ədəd xaçvarı, səkkiz ədəd köməkçi sütun üzərindədir.

Sabunçu dəmir yol vağzalının əsas hissələrinin də konstruktoru Cahangir müəllimdir. Gəncə Dəmir Yol vağzalında, reklam göstəriciləri üçün aşırımı yeddi metr olan dəmir-beton konsolun müəllifliyi də ona məxsusdur. Bu illərdə məhsuldar çalışan gənc konstruktor 1960-cı illərdən tikilməkdə olan yüksəkmərtəbəli binaların bir çoxunun layihəsində də iştirak etmişdir. O, konstruktor kimi bu gün də fəal iş aparır, 2009-cu ildən FHN nəzdində fəaliyyət göstərən təhlil qrupunda işləyir.

Bu illərdə Cahangir müəllim elmi fəaliyyətinə də ara verməyib. 1964-67-ci illərdə Politexnik İnstitutunun aspiranturasında (dəmir-beton və daş konstruksiyaları kafedrası) təhsil alıb, dissertasiya işini müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsi alıb. Həmin dövrdə Cahangir müəllim daha bir uğura imza atır, belə ki, Azərbaycan Memarlıq və İnşaat Universitetinin yerləşdiyi 1 saylı tədris binasının layihəsinin konstruktoru olur. Namizədlik dissertasiyasını uğurla müdafiə etdikdən sonra o, indiki Texniki Universitetdə dəmir-beton konstruksiyaları kafedrasında əvvəlcə assistent, baş müəllim kimi çalışmış və dosent vəzifəsinə qədər yüksəlmişdir.

Cahangir Quliyev 3 dərsliyin, 2 metodik vəsaitin, 10-dan çox elmi məqalənin müəllifidir. Dövri mətbuatda onun Cahangir Suraxanılı imzası ilə bir çox publisistik yazısı dərc edilmişdir.

Alim elmi ictimaiyyət arasında öz dəst-xətti, şəxsi mövqeyi ilə seçilir, məhsuldar əməyi olan ziyalı, gözəl ailə başçısı, yüksək intellektual səviyyəli bir şəxs kimi tanınır. Cahangir müəllim gənc inşaatçı kadrların yetişdirilməsinə xüsusi önəm verir, onun dərs dediyi yüzlərlə tələbə bu gün Azərbaycanda tikib-quran böyük inşaatçılar ordusunun özəyini təşkil edir.

Cahangir müəllim sadəlik və təvazökarlıq kimi nəcib xarakterə, yüksək mənəviyyata, dəyərli əxlaqi keyfiyyətlərə malikdir. O, xeyirxah, mərhəmətli olmaq kimi yüksək insani keyfiyyətləri özündə birləşdirən bir vətən övladıdır. Ömrü boyu alın təri ilə yaşayaraq, müəllim titulunu şərəflə, vicdanla, namusla çiyinlərində daşıyan əməksevər bir pedaqoq və alimdir. Rəhimlilik kiməsə dar günündə arxa olmaq, əl tutmaq bu vətənpərvər ziyalımızın həyat kredosudur. Xeyirxahlığıyla seçilən Cahangir müəllim həmişə öz tələbələrinə xüsusi diqqət və qayğıyla yanaşıb, ixtisasla bağlı elmi kitabları təmənnasız onların istifadəsinə verib.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin professor-müəllim heyəti və tələbə kollektivi sevimli



həmkarlarını, əziz müəllimlərini 85 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, ailə səadəti, yaradıcılığında böyük müvəffəqiyyətlər, səmərəli fəaliyyətində uğurlar diləyir, həmişə nikbin və mübariz olmağını gənc inşaatçıların yetişməsinə töhfələrinizi verməsini, gələcəyin qurucularını yetişdirməsini arzulayır. Əzizimiz Cahangir müəllim, 85 yaşınız mübarək! Qoy ulu Tanrı bütün istəklərinizin gerçəkləşməsində yardımçı olsun!

**Muxlis HACIYEV,**
**AzMİU-nun inşaat konstruksiyaları kafedrasının müdiri,**
**Əməkdar müəllim, professor**